T Ü R K O L O G İ Y A

№ 1 **2022**

MAHİRƏ HÜSEYNOVA (Azərbaycan)[*]

MAHMUD KAŞĞARİNİN "DİVAN"INDA ŞEİR MƏTNLƏRİNİN FONOPOETİK SPEKTRLƏRİ

Xülasə

Mahmud Kaşğarinin "Divanü lüğət-it-türk"ü dünya tarixində qələmə alınan ilk türk lüğətidir. Bu möhtəşəm sənət abidəsi təkcə sözlük deyil, eyni zamanda yazıldığı dövrün, zamanın xarakterik cizgilərini özündə əks etdirən, min il öncəki türkün dil aspektindən tarixinə, etnik mənəvi-mədəni dünyasına, etnoqrafiyasına, folkloruna, bütöv bədii düşüncəsinə, fəlsəfi kəlamına olduqca böyük və dəyərli bir baxışdır, qiyməti heç nə ilə ölçülməyən mötəbər bir qaynaqdır. Mahmud Kaşğari şeir də yaza bilərdi, dastan da yarada bilərdi, lakin o, bu yolla getmədi, xalqın yaratdığı poetik nümunələri - tuyuğları, dördlükləri, yeddilikləri, atalar sözləri və məsəlləri, hikmətli kəlamları topladı, xalqdan topladıqlarını məntiqli izahları ilə xalqa qaytardı və ensiklopedik zəka sahibinin lüğətə daxil etdiyi poetik örnəklərin hamısı bu gün də canlıdır və fonopoetik özəllikləri baxımından diqqəti daha çox cəlb edir. Bu mötəbər sənət abidəsində şeir yaradıcılığı üçün zəngin material mövcuddur və Mahmud Kaşğarinin hazır şeirləri toplayıb təqdim etdiyi örnəklərin fonopoetik spektrləri məqalədə poetexnik istiqamətdə şərh edilir.

Mahmud Kaşğari "Divan"da sözləri ərəb dilinin fonetik qayda-qanunlarına görə sıralandırmışdır. Onların mənaları müvafiq dil örnəkləri, o cümlədən müxtəlif türk ləhcələrində işlənilən deyim və atalar sözləri və onların yer aldığı dördlüklərlə izah edilmişdir. Belə açıqlanma prosesində görkəmli dilşünas – alim Mahmud Kaşğari elə şeir mətnlərindən istifadə etmişdir ki, onlar qədim türk şeirinin forma göstəriciləri barədə oxucuda dolğun təəssürat yaratmaqla yanaşı, səs-söz oyununun fonopoetik spektrləri – alliterasiya və assonansın operativliyi, işləklik intensivliyi haqqında geniş araşdırma aparmaq üçün zəngin linqvistik material verir.

Açar sözlər: *divan, folklor örnəkləri, fonopoetika, Mahmud Kaşğari.*

Mahmud Kaşğarinin böyük türk ellərindən hazır şəkildə topladığı və "Divan"da müəyyən sözün etimolojiləşdirilməsi məqamında istifadəyə cəlb etdiyi şeir mətnlərinin vəzni barədə türkologiyada mübahisələr bu gün də davam etməkdədir. İ.Stebleva, K.Brokelman, V.Bartoed, T.Tskin bu fikirdədilər ki, şeir mətnlərinin hamısı əruz vəznindədir. T.Gəncəyi, T.Hacıyev, M. Əliyev, T.Quliyev bu fikrə etiraz edərək göstərir və dəyərli faktlarla sübut edirlər ki, bu mətnlərin demək olur ki, hamısı heca vəznindədir. Akademik T.Hacıyev yazır: "Əlbəttə, sadəcə nəzəri cəhətdən ağla batmır ki, bir dənə də olsun ərəb və fars sözü işlətmədən, uzun

[*] Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) beynəlxalq əlaqələr üzrə prorektor, filologiya üzrə elmlər doktoru, professor. E-mail: huseynova.mahira@yandex.ru

saitləri olmayan təmiz türkcədə əruz şeiri yazmaq hansı türk şairininsə ağlına gəlsin. Əslində heca şeirində birinci misradakı açıq və qapalı hecaların sistemi sonrakı misralarda izlənsə, əruz ahəngi alına bilər – düzdür, buna nail olmaq çox çətindir, ancaq elə bəndlər, elə beytlər olur ki, bölgüləri (8-lik misrada 4+4, 7-likdə 3+4 və ya 5+2, 2+5 və s.) əsasdır. Daha burada hecaların açıq və ya qapalılığı, saitlərin uzun və ya qısalığı şərt deyil" (Hacıyev, 2002: 157). Doğrudan da, elmi-nəzəri və məntiqi baxımdan bu fikirlə razılaşmamaq mümkün deyil, biz də öz növbəmizdə Tofiq müəllimin bu fikrini tam şəkildə dəstəkləyirik. Mütəxəssislərin hesablamalarına görə, "Divan"da 158 bənd dördlük, 90 beyt özünə yer almışdır və bunların hamısı demək olar ki, ritmik və melodik baxımdan ölçü-biçimlidir, qədim və müasir türk şeirinin heca ölçülərinə müvafiq bir formadadırlar, yəni heca ölçüləri texniki poetik əlamətlərlə bir-birinə zəncirvari şəkildə bağlanır. Bir daha qeyd edirik ki, Mahmud Kaşğari müəyyən bir leksik vahidin mənası uçmaq və həmin mənanın hafizələrdə uzun müddət qalması üçün müxtəlif poetik örnəklərdən istifadə etməli olmuşdur. Məsələn, lüğətçi "üdhik" sözünün mənasını izah edərkən aşağıdakı şeir mətninə müraciət etməli olmuşdur :

"Üdhik mini komıttı
Sakın manqa yunıttı,
Könlüm anqar əmitti,
Yüzün məninq sarğarur"

Sevgi məni coşdurdu,
Sıxıntı başıma vurdu,
Könlüm onu sıxdı,
Üzüm mənim saralır

(Sevgilimə bəslədiyim eşq məni həyəcanlandırdı, tələşə saldı, könlüm ona meyl etdi, ona görə də rəngim saralır) (Mahmud Kaşğari, 2006: 132).

Mətndə etimolojiləşdirilən söz ("üdhik") birinci misranın başlanğıc hissəsindədir və mənası "eşq və sevginin coşması" anlamındadır (Mahmud Kaşğari, 2006: 132). Ümumilikdə mətndə sevgi motivi konseptuallaşdırılır. Mətn heca vəznindədir, 7-lik heca bölgüsünə əsaslanır, müasir dövrümüzdəki gəraylı şəklindədir, daxili qafiyə sistemində m samitinin alliterasiyası, xarici qafiyə quruluşunda isə b samitinin səslənmə intensivliyi qabarıqdır. Mətnin zahiri tərtibatında aydınlığı ilə seçilən alliterativlik "məhəbbət" konseptinin məna dərinliyinin və poetik mətləbin qavranılmasının dinamikliyində də aktivlik göstərir. Maraqlı cəhət bir də bundan ibarətdir ki, mətndə qafiyə mövqeyində sözlərin şəkilçi hissələrində qoşa samit ardıcıllığı (tt) özünü göstərir və bu da alliterasiyanın yaranmasına rəvac verir və bu fonetik hadisəni assimilyasiya tipi kimi də dəyərləndirmək olar. Bu xüsusda L.Kazımov da qeyd edir: "Divan"da söz kökünə artırılan şəkilçilərin bəziləri sözün tərkibində qoşa samit ardıcıllığını yaradır. Məs: arıttı – təmizlədi, eritti – çıxardı, erittü – əritdi" (Kazımov, 2014: 16).

Mahmud Kaşğari "Divan"da etimoloji oçerklərini, edütlərini vahid bir prinsipə əsaslanmış şəkildə qurmuşdur və linqvistik təhlilini verdiyi sözə uyğun da şeir mətnindən istifadə etmişdir. Bu mətnlərin əksəriyyəti fonetik səslənmə etibarilə olduqca ahəngdar, melodiyalı, ritmik və oynaq formalardadır. Müəllifin "Ətil" etimoloji edütünə nəzər salaq: Ətil: qıpçaq ellərində axan bir çayın adıdır. Bulğar dənizinə tökülür, bir qolu rus diyarına gedir. Bu bənddə də işlədilmişdir:

"**Ətil** suvı aka tunır,
Kaya tübi kak turur.
Balık təlim, baka turur,
Kölünq takı küsərür".

İdil çayı axa durur, axır,
Qaya dibin döyə durur, döyür,
Balıq çoxdur, baxa durur, baxır,
Gölməçələr dəxi daşır.

(İdil çayı durmadan axır, qayaların dibin döyəcləyir, suyun daşması üzündən dolan gölməçələrdə çoxlu balıq və qurbağa qaynaşır" (Mahmud Kaşğari, 2006: 141).

Tərcümə edilməmiş mətndə epiforik mövqedə "turur" təkrar feilinin intensiv işləkliyi özünü əyaniləşdirir və o, xarici qafiyə vəzifəsini yerinə yetirir. Daxili qafiyə mövqeyində isə aka-kaka-baka sözlərindən istifadə olunmasıdır. Şeir mətnində müxtəlif sözlərin fonetik tərkibində **k** samiti 9 dəfə, **t** samiti 5 dəfə, a saiti 10 dəfə, u saiti 6 dəfə işlənərək "çay" konseptinin obrazlı dinamikasının yaddaşlara həkk olunma işini asanlaşdırır, lirik məzmunu, tərənnüm lövhəsinin xüsusi ahəng məcrasına yönəldilməsində, fonetik obrazın (çay obrazının – M.H) dinləyicinin qulağında gözəl səsləndirilməsində əhəmiyyətli dərəcədə rol oynayır. Başqa sözlə desək, qeyd etdiyimiz sözlərin tərkibində samit alliterasiyası və saitlərin assonansı mükəmməl poetik-üslubi fənd səciyyəsi kəsb edərək oxucunun hiss və düşüncələrinə daha dərindən sirayət etmək funksiyasını uğurlu bir şəkildə yerinə yetirir. Yüksək ritm və intonasiya incəlikləri ilə seçilən mətnləri ayırd edib və həmin mətnlər əsasında etimoloji təhlillər aparmaq Mahmud Kaşğari dühasının fenomeniyasından xəbər verir.

Mahmud Kaşğari istifadə etdiyi qədim şeir mətnlərində morfoloji göstəricilərin müxtəlif sözlərin tərkibində və qafiyə mövqeyində intensiv şəkildə təkrarı da fonopoetik keyfiyyətləri əyaniləşdirən linqvistik vasitələrdəndir. Məsələn, böyük lüğətçi "aq bori" ifadəsinin mənasını izah edərkən (mənası, göreşən, kaftar) aşağıdakı bədii mətndən istifadə etmişdir:

"Köpük nəçük kaçmadinq,
Yamar suvın keçmədinq,
Tavarınqnı saçmadınq,
Yesin səni **ağ böri**"

Görüb neçin qaçmadın?
Yanar çayın keçmədin?

Malını da saçmadın?
Yesin səni göreşən.

(Əsir tutduğu bir adama deyir: məni görüb niyə qaçmadın? Yanar çayın niyə keçmədin? Canını qurtarmaq üçün niyə malını saçmadın, atmadın, vermədin? Mən indi səni öldürəcəyəm, qoy səni kaftar, goreşən yesin) (Mahmud Kaşğari, 2006: 146-147).

Bu şeir mətninin qədim formasında qafiyələnmiş sözlərin tərkibində -ma,mə inkarlıq şəkilçisinin , -dınq, -dinq arxaikləşmiş morfemlərin məqsədyönlü istifadəsi ümumtürk dillərinin səs sistemindəki poetik potensialı, ritmimelodika imkanlarını ahəngdar bir şəkildə nümayiş etdirir. Xüsusilə **nəçük** (neçin) sual əvəzliyinin birinci misrada çıxış edib, sonrakılarda ellipsisləşməsi, buraxılması sual intonasiyası dalğalarının yaranmasında morfoloji göstəricilərin mətninin fonetik-üslubi dəyər kəsb etməsini şərtləndirir. Morfoloji göstəricilərin sözlərin tərkibində gözəl ladlar yaratması qədim şeir mətnlərində təkcə forma əlamətləri deyil, həmçinin onu yaradan müəllifin bədii niyyətinin təzahürü kimi də olduqca səciyyəvidir.

Mahmud Kaşğarinin "Divan"ına səpələnmiş şeir mətnlərində alliterasiya və assonansın meydanı genişdir, bu fonetik vasitələr qafiyə mövqeyi ilə bərabər, digər yerlərdə özlərini təzahür etdirirlər. Məs:

Bilgə bükü yunçıdı,
Ərdəm əti tıncıdı (Kaşğarlı, 1941: 303).

(Ağıllılar bütün pisləşdilər, fəzilətin vücudu (əti) pozuldu, pis qoxu verdi).

Birinci misrada 2 dəfə **b**-nin təkrarı, ikincisində isə 2 dəfə **ə** saitinin təkrarı (bilgə-bükü; ərdəm-əti) alliterasiya və assonansı gerçəkləşdirir. Qafiyə mövqeyindəki sözlərdə də (yunadı-tıncıdı) alliterasiya ritm effektli səslənməni təmin edir.

Aşağıdakı şeir mətnində misralar 14 hecadır, qəlibi 7+7 –yə tam uyğun şəkildədir, mənşəcə dördlüyün açılmış formasındadır və qafiyəsizliyi ilə diqqəti çəkir:

Yaruq yulduz toqarda udun gəlib baqarmən,
Satuluyu sayraşıb tatlığ ünün quş ölər (Kaşğarlı, 1941: 174).

(Parlaq ulduz doğanda oyanaraq gəlib baxaram, Quşların dadlı səslə ötməsini –oxumasını eşidərəm.

Birinci misrada 2 dəfə **y** samitinin (yaruq-yulduz), ikincisində isə 2 dəfə **s** samitinin (satulayu-sayraşıb) alliterasiyası mətndən sezildiyi kimi ardıcıl gələn sözlərdə özünü göstərir.

Biz yazımızda "Divan"ın şeir mətnlərinin fonopoetik xüsusiyyətlərini araşdırarkən daha çox qədim mətnlərin, daha doğrusu, orijinal mətnlərin quruluşunun səs tərkibinə əsaslanırıq. Həmin mətnlər müasir dilimizə çevrilmə prosesində şübhəsiz ki, alliterativlik itir. Bunun da əsas səbəbi tarixi təkamül nəticəsində çoxlu sayda sözlərdə özünü göstərən və dilin qanunauyğun halı kimi baş verən fonetik hadisələrdir, daha düzü, səs keçiriciləridir. Nümunəyə nəzər salaq:

"Kışka etin, kəlsə kalı kutluğ yay,
Tün küh keçə alkınur ödhlək bilə yay"
Qışa hazırlaş sən, gəlsə qutlu yay,
Gecə-gündüz keçərək başa çatar zamanla ay

(Mübarək yay gələndə sən qışa hazırlıq gör, çünki gecənin və gündüzün keçməsi ilə aya və zaman başa çatar) (Mahmud Kaşğari, 2006: 148).

Bu mətnin tərcüməsiz formasında müxtəlif sözlərin tərkibində **k** samiti 8 dəfə işlənərək alliterativlik yaratmışdır, lakin tərcümə mətnində alliterativlikdən demək olar ki, əsər-əlamət yoxdur. Bunun da əsas səbəbi dilin inkişafı ilə əlaqədar olaraq **k** samitinin özünə qohum olan səslərə keçididir: kışka-qısa; kəlsə-gəlsə; kutluğ-qutlu; keçə-gecə. Göründüyü kimi, sözlərdə müasir dilimizlə müqayisədə k>g; k-q samit keçidləri özünü göstərir ki, həmin samit səslər məxrəc etibarilə bir-birinə bağlı və qohum səslərdir.

"Divan"ın şeir mətnlərində fonopoetik vasitə kimi alliterativlik misra biçimində ardıcıl gələn sözlərin tərkibində daha çox özünü təzahür etdirir. Məs:

"Bardı ərən, **k**omi**k** köpü**k** **k**ut**k**a sa**k**ar,
Kaldı yavuz, oyu**k** **k**öpü**k** əvni yı**k**ar"
Qonaq görüb bunu qut sayan ərənlər getdi,
Oyuq görüb evin yıxan pislər qaldı
(Mahmud Kaşğari, 2006: 150).

Birinci misrada ardıcıl gələn sözlərdə k samitinin alliterasiyası üstünlük təşkil edir, ikinci misrada da təxminən vəziyyət həmin şəkildədir. Maraqlı cəhət budur ki, birinci misrada 7 dəfə işlənən **k** samiti, ikinci misrada 5 dəfə çıxış edərək misralar arasında güclü ahəng uyğunluğu yaradır.

"Divan"da qeydə alınmış atalar sözləri və məsəllərdə müasir dövrdə olduğu kimi qanunauyğun olaraq alliterativlik olduqca güclü bir şəkildə təzahür edir. Məs:

"Ulu bolsa, yol azmas,
Bilik bolsa, söz yazmas"
Əlamət olsa, yol azmaz,
Bilik olsa, söz çaşmaz.

(Çöldə əlamət, nişan qoyulsa, yolu azmazlar, adam bilikli olsa, sözündə yanılmaz) (Mahmud Kaşğari, 2006: 155).

Bu atalar sözü mətnində 5 dəfə **l** sonorunun, 4 dəfə **s** samitinin alliterasiyası, 3 dəfə **o** saitinin assonansı müdrik kəlamın səslənmə ahəngini tənzimləyir və onun ritmik funksiyasındakı emosiya axarına xüsusi intensivlik əlavə edir. "Divan"da atalar sözləri və məsəllər xeyli saydadır və onlarda ta qədimdən XI əsrə qədər və ondan sonrakı dövrlərdə də lirikləşmə hadisəsi qabarıq şəkildə olduğundan alliterativliyə də meylilik olduqca güclü olmuşdur. Lirik ifadələnməözünün yığcam, lakonik qəliblərdə poetexniki xüsusiyyətlərini alliterasiya və assonansın köməyi ilə də əks etdirir və Mahmud Kaşğarinin qeydə aldığı və müəyyən

məqsədlərlə işlətdiyi atalar sözləri və məsəllərin demək olar ki, hamısı alliterasion keyfiyyətlidir.

Şeir mətnlərində təzahür edən alliterativlik poetikləşdirmə prosesinin intensivlik dərəcəsinin göstəricisi olub, qədim bədii mətnlərin poetik ruhuna yaxın formada çıxış edir, səs harmoniyası mətnin zahiri əlaməti ilə bərabər, məzmunun daxili mahiyyətini də poetik cizgiləri ilə əyaniləşdirir. Məs:

"Yasın atıb yaşnadı,
Tuman turup tuşnadı,
Adhğır, kısrak kisnədi,
Ögür alıp okrasur".

Şimşək, ildırım çaxdı,
Duman durub qarşıladı.
Ayğır, qısraq kişnədi,
Höyür alıb kişnəşir (Mahmud Kaşğari, 2006: 223).

Mətndə təbiət və heyvan konseptlərinə aid hadisələr çulğulaşmış şəkildə təqdim olunur və birinci misrada 2 dəfə **y** samitinin alliterasiyası, 4 dəfə **a** saitinin assonansı, ikincisində 3 dəfə **t**-nın alliterasiyası, 4 dəfə **u** saitinin assonansı, üçüncüsündə 2 dəfə **k** samitinin alliterasiyası, həmin miqdarda **ı**-nın assonansı poetik forma atributları kimi mətnin səs strukturunun gözəl ifadəsinə səbəb olur.

Mahmud Kaşğarinin verdiyi şeir mətnlərinin bəzilərində alliterativlik aktiv, bəzilərində zəif səviyyələrdə təzahür edir. Məsələn, müəllifin verdiyi "Köş kılıç kanqa sığmas = qoşa qılınc qına sığmaz" – atalar sözünə semantik variant kimi "Ərən alpı okıştılar, Kınqır közin bakıştılar, Karzuğ tolmun tokuştular, Kılıc kınqa küçin sığdı" (Mahmud Kaşğari, 2006: 365) – şeir mətninin birinci, ikinci, üçüncü misralarında **k** samitinin alliterasiyası zəif, dördüncü misrasında isə atalar sözündə olduğu kimi aktiv şəkildə özünü göstərir.

Mahmud Kaşğari "Divan"da sözləri ərəb dilinin fonetik qayda-qanunlarına görə sıralandırmışdır. "Onların mənaları uyğun dil örnəkləri, o sıradan müxtəlif türk ləhcələrində işlənilən deyim və atalar sözləri və onların yer aldığı dördlüklərlə açıqlanmışdır" (Musayev, 2012: 60). Belə açıqlanma prosesində görkəmli dilşünas – alim Mahmud Kaşğari elə şeir mətnlərindən istifadə etmişdir ki, onlar qədim türk şeirinin forma göstəriciləri barədə oxucuda dolğun təəssürat yaratmaqla yanaşı, səs-söz oyununun fonopoetik spektrləri – alliterasiya və assonansın operativliyi, işləklik intensivliyi haqqında geniş araşdırma aparmaq üçün zəngin linqvistik material verir.

ƏDƏBİYYAT

1. Hacıyev, T.İ. (2002). "Mahmud Kaşğarlı. Divani lüğət-it-türk". Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, II cild, Bakı, "Elm".
2. Kaşğarlı, M. (1941). Divanu lüğət-it-türk çeviréni : Besim Atalay, III cild, Ankara.

3. Kazımov, İ.B. (2014). Mahmud Kaşğari “Divan”ı və Çağdaş türk dilləri. Bakı, “Elm və təhsil”.
4. Mahmud, K. (2006). Divanü lüğət-it-türk. Çevirəni : Ramiz Əskər. Dörd cilddə, Icild, Bakı, “Ozan”.
5. Musayev, M.M. (2012). Türkoloji dilçilik. Bakı, “Elm və təhsil”

Махира Гусейнова (Азербайджан)

Фонопоэтические спектры поэтических текстов в «Диване» Махмуда Кашгари

Резюме

«Дивану лугат-ит-тюрк» Махмуда Кашгари — первый турецкий словарь, написанный в мировой истории. Этот великолепный памятник искусства является не только словарём, но и характерным для своего времени взглядом в аспекте языка на историю, этнический нравственно-культурный мир, этнографию, фольклор, целостное художественное мышление, философское слово тюрков тысячелетней давности, неоценимым достоверным источником. Махмуд Кашгари мог бы и стихи писать, и эпосы создавать, но он не пошёл по этому пути, а собрал народные поэтические образцы – туюги, четверостишия, семистишия, пословицы и поговорки, мудрые изречения, собранное вернул народу с логическими толкованиями, и все поэтические образцы, включённые в словарь, живы по сегодяшьий день и привлекают большее внимание с точки зрения фонопоэтических особенностей. В этом авторитетном памятнике искусства имеется богатый материал для поэтического творчества, и фонопоэтические спектры образцов, собранных и представленных Махмудом Кашгари, в статье толкуются в поэтехническом направлении.

Махмуд Кашгари в «Диване» расположил слова по фонетическим правилам арабского языка. Их значения объясняются соответствующими языковыми моделями, включая идиомы и пословицы, используемые в различных тюркских диалектах, и четверостишия, в которых они присутствуют. В процессе этого разъяснения видный учёный-языковед Махмуд Кашгари использовал такие поэтические тексты, которые наряду с созданием у читателя полноценного впечатления о формальных показателях древнетюркской поэзии дают богатый лингвистический материал для проведения обширного исследования оперативности, употребительности фонопоэтических спектров словесной игры – аллитерации и ассонанса.

Ключевые слова: *диван, фольклорные образцы, фонопоэтика, Махмуд Кашгари.*

Mahira Huseynova (Azerbaijan)

Phonopoetic spectra of poetic texts in Mahmud Kashgari's "Divan"

Abstract

Mahmud Kashgari's "Divanu lugat-it-turk" is the first Turkish dictionary written in the history of the world. This magnificent monument of art is not only a dictionary, but also a great and valuable look at the history, ethnic, spiritual and cultural world, ethnography, folklore, whole artistic thought, philosophical speech of the Turks from a thousand years ago, reflecting the characteristics of the period in which it was written. , is a reliable source whose price is not measured by anything. Mahmud Kashgari could have written poetry and created epics, but he did not go that way. All the poetic examples included in the dictionary are still alive today and attract more attention in terms of phonopoetic features. There is a rich material for poetry in this prestigious monument of art, and the phonopoetic spectra of the samples collected and presented by Nin are interpreted in a poetic way in the article.

Mahmud Kashgari in Divan ranked the words according to the phonetic rules of the Arabic language. "Their meanings are explained by appropriate language patterns, idioms and proverbs used in various Turkish dialects, and the quatrains in which they are placed". In the process of such disclosure, the prominent linguist Mahmud Kashgari used such poetic texts that, in addition to giving the reader a full impression of the form indicators of ancient Turkish poetry, rich linguistics to conduct extensive research on the phonopoetic spectra of sound play - alliteration and assonance. gives material.

Keywords: *sofa, folklore samples, phonopoetics, Mahmud Kashgari.*

_____